**ULDUZ MANAFOVA**
*Kitabxana-resursları və informasiya-axtarış sistemləri kafedrası, dissertant*
Ulduz_xanim@mail.ru

# KİTABXANA FONDUNUN ÖYRƏNİLMƏSİNİN ELMİ-NƏZƏRİ ƏSASLARI

***Xülasə:*** *Bildiyimiz kimi fond kitabxana sistemində əsas və öz dominantlığı ilə seçilən vahid ünsürlərdən biri hesab edilir. Fondun əsasını sənəd kütləsi təşkil edir. Məqalədə kitabxana fonunun yaranmasının əsas mahiyyəti, fondun formalaşmasının nəzəriyyəsi, komplektləşdirmənin əsas tərkib hissələri qısaca da olsa şərh edilmişdir.*

***Açar sözlər:*** kitabxana, fond, komplektləşdirmə, sənəd dövriyyəsi.

**Giriş:** "Kitabxana işi haqqında" Azərbaycan Respublikası qanunun 4-cü maddəsinə əsasən kitabxana fəaliyyətinin əsas istiqamətləri – sənəd informasiya fonlarının formalaşmasından, mühafizəsindən və bu materialların hüquqi və fiziki şəxslərə istifadəyə verilməsindən, kitabxanalarda toplanıb saxlanılan informasiya vasitələrinin mübadiləsinə imkan verən vahid informasiya məkanın yaradılmasından ibarətdir [1].

Kitabxana fondunun tərkibinə kitab, jurnal, qəzet və digər çap məhsulları, audiovizual və texniki vasitələrə oxunan materiallar, əlyazmalar, elektron nəşrlər və başqa informasiya daşıyıcıları daxildir. Kitabxana fondu bəşəriyyətin əsrlərlə formalaşan maddi-mənəvi sərvəti, biliklər xəzinəsi, zəngin kitab sərvətidir. Milyonlarla sənəd kütləsini özündə əks etdirən kitabxana fondunun formalaşması, qorunması, saxlanması, təşkili, idarə edilməsi həmişə dinamik inkişafda olan proses kimi təkmilləşir, qabaqcıl metodlara, formalara, elmi qanunlara əsaslanır

Bildiyimiz kimi fondun əsasını sənəd kütləsi təşkil etdiyi üçün sənədlərin hansı mənbələrdən əldə edilməsi də məhz kitabxananın əsas daxili iş prinsiplərindən birini təşkil edir. Qeyd edək ki, "Komplektləşdirmə" termininin izahı, nəzəri və praktiki həlli milli tədqiqatçılara nisbətən, rus tədqiqatçıları tərəfindən geniş şəkildə kitabxana fondu kontekstində təhlil edilmişdir. Bu sahədə rus tədqiqatçılardan: İ. A. Krılovun, Y.N.Stolyarovun da adlarını qeyd edə bilərik. XX əsrin əvvələrində bu termin ölkəmizdə də kitabxana həyatına geniş şəkildə daxil edilmişdir. Kitabxana fondunun komplektləşdirilməsi kitabxananın vəzifələrinə və oxucuların maraqlarına uyğun nəşrlər ilə yaradılması və daim yenilənməsi, müasir ədəbiyyatla təmin olunması və dəyərini itirmiş nəşrlərdən azad olunmasıdır. Kompleklәşdirmə sözünün mənası latın dilində completus- tam,ümumi cəmlənmə, nəyinsə tərkibi, artırılma məzmununu ifadə edir. Dünya kitabxanaşünaslıq elmində bu sahə üzrə müəyyən tədqiqatlar aparılsa da bu prosesin dəqiq tərifi yoxdur. Ümumi qəbul edilmiş anlayışa görə bu sistemli və planlı seçimdir, kitabxana fondları üçün yeni sənədlərin əldə edil-

məsidir. Digər yanaşmaya görə isə bu ikitərəfli prosesdir: lazımi sənədlərin əldə olunması və eyni zamanda lazımsız və köhnəlmiş sənədlərin aradan qaldırılması prosesi hesab edilir. İkinci qeyd etdiyimiz tərif bilavasitə daha dəqiq və perspektivlidir, çünki komplektləşdirmə kitabxana fondunun sistem kimi yaranmasında və sənədlərin kompleks şəkildə fondda əks olunmasına yönəlir. Lakin kompleks (komplekt) ancaq o sənədlər toplusuna deyilir ki, hansında ancaq lazımi sənədlər var, və istifadəyə yararsız sənədlər çıxarılıb. Rus tədqiqatçısı Y.V.Qriqoryev hesab edirdi ki, koplektləşdirmə təkcə fondun artırılması prosesi deyil, o həm də kitabxananın fəzifələrinə cavab verən səviyyədə fondun düzgün saxlanmasıdır. Kitabxananın vəzifələrinə fondan köhnəlmiş ədəbiyyatın çıxarılması aid edilir. Buna əsaslanaraq Y.V.Qriqoryev kitabxana fondu üçün ədəbiyyatın birinci (sənədləri fonda daxil etmək mərhələsi) və ikinci (sənədlərin fondan çıxarılması mərhələsi) seçim mərhələrini üçün müddəalar hazırlamışdır. Sənədlərin daxil olma və xaric edilməsi zamanı fond dinamik sistemə çevrilir və yeni sənədlərlə təchiz olunur. Sənədlərin fonda daxil olmasını kitabxana üçün yeni bir proses olduğunu qəbul etmək olar, fonddan çıxarılma isə kitabxana fondunun tənzimləşdirilməsini və köhnə, öz əhəmiyyətini itirmiş səndlərdən təmizlənməsi kimi başa düşülür. Nəticədə bu proseslər kompleks şəkildə kitabxana fondunun yenilənməsi prosesini həyata keçirir [6].

Kitabxana fondunun inkişafının effektivliyi həm sosial, həm də iqtisadi tərəfdən də qiymətləndirilir. Sosial tərəf dedikdə, oxucu ehtiyaclarını ödəmək məqsədləri ilə faktiki olaraq oxuculara göstərilən kitabxana xidmətləri arasında (məzmun, keyfiyyət, forma, kəmiyyət baxımdan) uyğunluğu nəzərdə tutulur. İqtisadi tərəf isə bütün növ mənbələrin sabit xərcləri ilə maksimum nəticələri əldə etmək və ya məlumat ehtiyaclarını planlaşdırılmış səviyyədə təmin etmək üçün xərclərin optimallaşdırılmasıdır. Kitabxana fondunun fəaliyyətində iqtisadi effektivliyi təyin etmək üçün bir neçə yanaşma hazırlanmışdır:

1) Məhsul və ya xidmət vahidi üçün mayanın müəyyənləşdirilməsi (müəyyən bir keyfiyyət səviyyəsində daha az mal olan bir məhsul və ya xidmət istehsal prosesi); Bu yanaşmanın tətbiqi effektivliyi təyin edərkən hansı nəticələrin, xərclərin və göstəricilərin istifadə ediləcəyini dəqiq müəyyənləşdirməyi tələb edir.
2) İnformasiya xidmətlərinin xərclərinin xidmət sistemi tərəfindən verilən məlumatlardan istifadə effektinin xüsusiyyətləri ilə müqayisəsi;
3) Məlumat məhsulları və xidmətlərinin istehsalı üçün sosial zəruri xərclərin müəyyənləşdirilməsi;

Kitabxana fondunun ədəbiyyatla təchiz edilməsi zamanı tematik-tipoloji planın tərtib edilməsi kimi vacib bir məqamı da unutmaq olmaz. Bu da oxucuların profilinə uyğun olmalıdır və hər bir kitabxananın fond quruluşu ilə müəyyənləşdirilməlidir. Belə bir planın düzəldilməsi kitabxanaya daxil olan istifadəçi sorğularından asılıdır və ildə ən azı bir dəfə baş verir. Tematik-tipoloji planın tərtib edilməsi, komplektləşdirmə şöbəsinin məsuliyyətidir. Bəzi hallarda bu plandan cüzi çatışmazlıqlarda müşahidə oluna bilər. Bunun səbəbi müx-

təlif səbəblərdən ola bilər, məsələn: sifarişli nəşrin məhdud sayda olması; qeyri-maliyyələşdirmə ilə; ədəbiyyat müəyyən səbəblərdən təchizatçı kimi çıxış edə bilməyən bir naşirdən sifariş edilərsə.

Kitabxana fondunun əsas keyfiyyət göstəriciləri bir tərəfdən abunəçilər tərəfindən istifadə intensivliyidir: intensivlik nə qədər çox olsa, fond o qədər dəyərlidir, və əksinə; digər tərəfdən isə kitabxana fondunun abunəçilərin mənəvi zəngiləşməsinə təsiri, göstərilən xidmət sahəsinin müxtəlif tərəflərinin inkişafı ilə əlaqədardır. Hələki bu təsirin qiymətləndirmə üsulu işlənməmişdir, hansı ki xidmət göstərilən sahənin kitabxana fondunun vəziyyətindən asılı olaraq dəyişdirilməsiylə bağlı məlumat alına bilsin. Respublikada mövcud olan kitabxana fondları informasiya mərkəzidir, onların fəaliyyəti ancaq sabah üçün deyil, həm də abunəçilərin gələcəkdə yaranan informasiya tələbatlarını ödəmək üçün nəzərdə tutulub. Qeyd edək ki, kitabxana fondu-bəşəriyyətin yaddaşının deposudur, bu baxımdan onu gələcək fəaliyyət üçün dəyərləndirmək lazımdır. Bu səbəbdən, "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanun" da qeyd olunduğu kimi: Kitabxana elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya vasitələrini toplayıb, mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialına xidmət göstərən sosial inistitut hesab edilir [5].

Kitabxana fondlarının qiymətləndirilməsini indiki zamanda dəyərləndirmək üçün keyfiyyət və kəmiyyət meyarları sistemi istifadə olunur. Onları bilmək kitabxanaşün alimlər, bu sahədə çalışan tədqiqatçılar üçün çox vacibdir, çünki onlar kitabxana fondunun vəziyyəti barədə informasiyaya malikdirlər və onun komplektləşdirməsinin təkmilləşdirilməsinə dair qərarlar verirlər.

***Kitabxana fondunu səciyyələndirən keyfiyyətli meyarlar***



Məlumdur ki, kitabxana-informasiya müəssisələrində fondların formalaşma sisteminə aşağıdakı prosesləri daxil etmək məqsədəuyğun hal hesab edilir.

- ✓ Fondun modelləşdirilməsi;
- ✓ Fondun komplektləşdirilməsi;
- ✓ Fonda daxil olan və xari edilən sənədlərin uçotu;
- ✓ Sənədlərin xüsusi işlənməsi;
- ✓ Sənədlərin fondda yerləşdirilməsi;
- ✓ Kitabxana fondunun düzülüşü;
- ✓ Kitabxana fondunun qorunmasının təşkili;
- ✓ Kitabxana fondunun istifadə edilməsi;
- ✓ Kitabxana fondunun idarə edilməsi [4].

**Nəticə:** Yuxarıdakı qeyd etdiyimiz proseslərdən kitabxana fondunun idarəolunması başlıca yer tutur. İdarəetmə özündə: Kitabxana fondunun formalaşmasının və inkişafının idarə olunması (həcm, tematika, dolğunluqda və s. əks olunur); Kitabxana fondunun istifadəsinin idarəolunması (kitab verlişi, sorğu, rədd cavabı, uyğunluq indeksi, istinad, analiz və s. əks olunur). Beləliklə kitabxana fondunun yaranması, formalaşması və idarəolunması onun formalaşması strategiyasının müəyyənləşdirilməsini, həmçinin onun inkişafı və istifadəsinə uçot və nəzarət olunmasını əks etdirir.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı**


1. Azərbaycan Respublikasının "Kitabxana işi haqqında qanun" u.-Bakı,1999.
2. Библиотечные фонды: Учебник для библ. фак. ин-тов культуры, пед. ин-тов и ун-тов / Ю.Н. Столяров и др. М.: Книга, 1979. С. 27—33.
3. Бессмремянная, Ю. С. и. бр. Первичный и вторичный отбор избаний: соотношение и бзаимозабисимость//Библиотековебение, 1997,№ 1, с. 32-36.
4. Столяров Ю.Н. Библиотечный фонд: Учебник для библ. фак. ин-тов культуры, ун-тов и пед. вузов. М.: Кн. палата, 2015.-271 с.
5. Столяров Ю.Н. Сто лет библиотечного фондоведения. // Научные и технические библиотеки .- 2001.- №6.- С 16-46.
6. Григорьев Ю.В. Теоретические основы формирования библиотечных фондов: Уч. пособие. М.: Книга, 1973. С. 47.
7. Жданова Т.А. Проблематика научных исследований в области формирования фондов библиотек: некоторые акценты // Научные и технические библиотеки 1999. № 6. С. 3—14.



*Улдуз Манафова*


## *НАУЧНО-ТЕОРЕТИЧЕСКАЯ ОСНОВА ИССЛЕДОВАНИЯ ФОНДА БИБЛИОТЕКИ*


### *РЕЗЮМЕ*

*Как известно, фонд - один из основных и уникальных элементов библиотечной системы, отличающийся своим доминирующим положением. Основа фонда - масса документов. В статье кратко изложена основная сущность библиотечного фона, теория формирования фонда, основные составляющие коллекции.*



***Ключевые слова:*** библиотека, фонд, кадровое обеспечение, документооборот.

*Ulduz Manafova*

## *SCIENTIFIC AND THEORETICAL FUNDAMENTALS OF LIBRARY FOUNDATION STUDY*

*SUMMARY*

*As we know, the fund is one of the main and unique elements in the library system, distinguished by its dominance. The basis of the fund is the mass of documents. The main essence of the library background, the theory of the formation of the fund, the main components of the collection are briefly explained in the article.*

***Key words:*** library, fund, staffing, document turnover.

**Rəyçi:** t.ü.e.dok.,prof. X.İ.İsmayılov